Ona görə də ekoloji təmiz məhsul istehsalı zamanı əsas istehsal vasitəsi və biosferin biokos hissəsi olan torpaqların çirklənməməsinə ciddi fikir verilməli, onun mühafizəsinə daim diqqət yetirilməlidir.

Bəs görəsən istehlakşıların çox böyük dəyər verdikləri, həvəslə alıb gündəlik tələbatları üçün istifadə etdikləri ekoloji təmiz kənd təsərrüfatı məhsulları və o cümlədən də meyvə, giləmeyvə məhsulları hansı mühüm tələblərə cavab verməlidir?

İlk nıvbədə onu qeyd etmək lazımdır ki, hazırda çox böyük əziyyətlə yetişdirilən ekoloji təmiz məhsullara bir sıra mühüm tələblər müəyyən edilmışdir:

-təsərrüfatlarda becərilən ekoloji təmiz bütün növdən olan məhsulların istehsalında, yetişdirilməsində genetik modifikasiya olunmuş orqanizmlər və eləcə də onların törəmələrindən birmənalı olaraq qəti şəkildə istifadəyə yol verilməməlidir;

-ekoloji təhlükəsiz belə məhsulların emalında yalnız beynəlxalq və milli standartlarda icazə verilən təbii qida əlavələrindən istifadəyə icazə verilməlidir;

-bütün istehsal proseslərində sanitariya-gigiyena qaydalarına ciddi şəkildə əməl olunmalıdır;

-"torpaqdan süfrəyə" prinsipi əsas götürülməlidir.

Son zamanlar bütün dünyada alıcılar tərəfindən ekoloji təhlükəsiz məhsullara diqqət daha da çoxalmışdır. Belə məhsullar digərlərindən bir sıra mühüm xüsusiyyətlərinə görə fərqlənirlər:

-onlar əhalinin sağlamlığı üçün həm təhlükəsiz və həm də zəruri olan qida məhsulları hesab olunur:

-ekoloji təmiz və təhlükəsiz məhsulların yetişdirilməsi üçün yalnız üzvi gübrələrdən istifadə edilir. Bu məqsədlə təsərrüfatlarda peyin və kompostlardan geniş şəkildə istifadə olunur:

-ekoloji təmiz və təhlükəsiz məhsullar mineral gübrələr, pestisidlər və bu kimi başqa bu kimi aqrokimyəvi vasitələrin istifadə edilmədiyi, texnogen çirklənmələrə məruz qalmayan ərazilərdə becərilir:

-ekoloji təmiz məhsullara təbii xammallardan mineral kənar qarışıqların təsiri ilə alınmış məhsulları da aid etmək olar:

Belə məhsulların istehsalı zamanı müxtəlif pestisid növlərindən qətiyyən istifadə edilməsinə yol verilmir.

Qeyd etmək lazımdır ki, pestisidlərin çoxunun obyektə görə siniflәşdirilib tətbiq edilməsi şərtidir.

***İnsektisidlər***- zərərverici həşəratlardan mühafizə etmək üçün istifadə olunan maddələr;

***Akarisidlər***-bitkiləri zərərli gənələrdən mühafizə etmək üçün istifadə olunan maddələr.

***İnsektoakarisidlər***-bitkiləri eyni vaxtda zərərli həşərat və gənələrdən mühafizə etmək üçün istifadə olunan maddələr;

***Ovisidlər***-zərərli həşərat və gənələrin yumurtalarını məhv etmək üçün tətbiq olunan maddələr;

***Lavrisidlər***-həşərat və gənəciklərin sürfələrini məhv etmək üçün istifadə olunan maddələr;

***Limasidlər***-bitkiləri ilbizlərdən qorumaq üçün istifadə olunan maddələr;

***Zoosidlər***-rotentisidlər (zoo-heyvan) – zərərli gəmiricilərə qarşı istifadə olunan maddələr;

***Nematisidlər***-bitkiləri zərərli nematodlardan mühafizə etmək üçün istifadə olunan maddələr;

***Funqisidlər***-bitkiləri göbələk xəstəliklərdən mühafizə etmək üçün istifadə olunan maddələr;

***Bakterisid***-bitkiləri bakterial xəstəliklərdən mühafizə etmək üçün istifadə olunan maddələr;

***Herbisidlər***-alaq otlarına qarşı istifadə olunan maddələr;

***Arborisidlər***-ağac,kol bitkilərini məhv etmək üçün istifadə olunan maddələr;

***Alqisidlər***-bunlar su bitkilərinə, yosunlara qarşı istifadə olunan maddələrdir.

Təsərrüfatlarda hazırda geniş şəkildə tətbiq olunan pestisidlərin çoxu universal xarakterə malikdir və ekoloji təhlükəsiz məhsulların istehsalı zamanı onlardan birmənalı şəkildə istifadə edilməməlidir.

Ümumiyyətlə, məhsulun ekoloji təmizliyini təmin etmək üçün həmin məhsulun xammalının yetişməsi dövründən başlayaraq satışa çıxarılacaq hazır məhsulun satış rəflərinə çıxarılacağı müddətə kimi bütün növbəti mərhələlərdə də ekoloji təmiz və təhlükəsiz məhsul üçün tələb olunan bütün qaydalara və şərtlərə çox ciddi bir şəkildə əməl olunmalıdır. Belə məhsulların üzərindəmütləq onları digərlərindən fərqləndirmək üçün müvafiq qaydada" ekoloji təmiz" nişanı vurulmalıdır. Ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının satışı bu məqsəd üçün ixtisaslaşdırılmış xüsusi mağazalarda həyata keçirilməlidir. Belə mağaza olmadığı hallarda isə həmin məhsulların satışı ticarət müəssisələrinin xüsusi şöbələrində aparılmalıdır. Ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları onların xarab olmasının, əzilməsinin, qırılmasının, çirklənməsinin və s. qarşısını alacaq şəkildə bir-birindən ayrı, istehlak xüsusiyyətindən asılı olaraq döşəmə, divar və tavanla təmasda olmayacaq formada (rəf şəklində) yığılmalıdır.

### *Ədəbiyyat*

1. Babayev A.H., Babayev V.A. Ekoloji kənd təsərrüfatının əsasları. Ali məktəblər üçün dərslik.Bakı. "Qanun" nəşriyyatı, 2011, 383 s.
2. Cəfərova R.M. Təbiətdən istifadənin iqtisadiyyatı. Dərs vəsaiti. Bakı-2014. 285 s.
3. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya , ətraf mühit və insan. Ali məktəblər üçün dərslik. Bakı. "Elm" 2006. 608 s.

## ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ ВЫРАЩИВАНИЕ ЭКОЛОГИЧЕСКИ ЧИСТЫХ И БЕЗОПАСНЫХ ПРОДУКТОВ

***Искандерова Тунзале Гасан кызы, Джафарова Севда Фамил кызы***
***Юсубалиев Юсуб Кочари оглы***

### *Резюме*

Выращивая экологически чистые продукты в первую очереди нужно найти экологическую зону. Это очень сложный вопрос. Большинство таких территорий находятся за городом. Такие территории отдаленно от различных предприятий. Здесь воздух чище. Но, нельзя быть таким уверенным, что земля полностью чиста от химикатов. Существуют специальные службы, которые определяют содержание в почве токсинов и тяжелых металлов. Этим занимаются государственные агрохимические службы. Для анализа берется грунт с нескольких мест на участке и с разной глубины.

Чтобы получить экологически чистый урожай, нужно использовать только органические удобрения, Нельзя использовать никакой химии. Для этого подойдет навоз или компост.

## MAIN CHARACTERISTICS GROWTH OF ECOLOGICAL PURE AND SAFE PRODUCTS

***Iskandarova Tunzala Hasan, Jafarova Sevda Famil***
***Yusubov Yusub Kocari***

### *Summary*

Growing ecologically clean products in the first place you need to find an ecological zone. This is a very difficult question. The majority of such territories are located behind the city. Such territories are far from different enterprises. Here is the air of purity. But it is

impossible to be so sure that the earth is completely free of chemicals. There are special services that determine the content of toxins and heavy metals. These state agencies are engaged in agrochemical services. For analysis, the soil is plowed in several places on the site and with different depths.

In order to get an ecologically clean crop, you need to use only organic fertilizers, you can't use any chemicals. For this, manure or compost is suitable.

***Rəyçi: prof.Sevda Əhmədova***
***Ekologiya kafedrasının 18 mart 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 19 mart 2021-ci il***

**UOT:579.**

# QARACİYƏRİN QLUKOGEN FUNNKSİYASI VƏ QANIN ŞƏKƏR SƏVİYYƏSİNİ TƏNZİM EDƏN FİZİOLOJİ PROSESLƏR

***İsmayılova Kifayət Tapdıq qızı***
***Gəncə Dövlət Universiteti***
***Gceferova@rambler.ru***

**Xülasə:** *Qaraciyər orqanizimdə bir sıra mühüm funksiyaları yerinə yetirir.*

*Qaraciyər çatışmamazlığı zamanı maddələr mübadiləsində, xüsusilə karbohidrat mübadiləsində pozğunluqlar daha qabarıq nəzərə çarpır.*

*Qanda şəkər səviyyəsinin yarıya qədər azalması hipoqlikemik koma törədə bilər.*

*Qaraciyər qanın qlükozaya olan tələbatını ödəmək üçün kifayət qədər qlükogen ehtiyatına malik olmalıdır.*

*Canlı aləmin inkişafının ən ali mərhələsində şəkər qanın əsas komponenti hesab olunur.*

*Beyin qabığının fəaliyyəti şəkər hesabına həyata keçirilir.*

*Ali heyvanlarda və insanlarda qanda şəkərin tənzimini avtomatik olaraq sinir humoral yolla həyata keçirilir.*

*Endokrin vəzilər qanın şəkər səviyyəsinin tənzimində əhəmiyyətli rola malikdir.*

*Qanda şəkər səviyyəsinin dəyişməsində digər faktorların iştirakı da təsir göstərir.*

*Emosional hallarda və əzələ işi zamanı qanda şəkərin miqdarının dəyişməsi bir çox tədqiqatlarla sübuta yetirilmişdir.*

**Açar sözlər:** qaraciyər, qlükoza, hipoqlikeniya, qlükogen, zülal, karbohidrat, əzələ, qan, şəkər, beyin, endokrin, sinir sistemi, humoral, insulin.

**Key words:** liver, glucose, hypoglycemia, glycogen, protein, carbohydrates, muscle, blood, sugar, brain, endocrine, nervous system, humoral, insulin**.**

**Ключевые слова:** печень, глюкоза, гипогликемия, гликоген, белок, углеводы, мышца, кровь, сахар, мозг, эндокринная, нервная система, гуморальный, инсулин.

Orqanizimdə qaraciyər funksiyasının çatışmazlığı maddələr mübadiləsinin pozulması, öd hazırlanmasının pozulması, qaraciyərin baryer funksiyasının azalması, qanın tərkibinin və xassələrinin dəyişməsi, sinir sistemi funksiyasının dəyişməsi, su mübadiləsinin pozulması ilə təzahür edir.

Qeyd olunanlar qaraciyərin orqanizmdə nə qədər mühüm funksiyaların icrasında iştirakını göstərir.

Qaraciyər çatışmazlığı zamanı maddələr mübadiləsində, xüsusilə karbohidrat mübadiləsində pozğunluqlar daha qabarıq nəzərə çarpır. Bu ilk növbədə monosaxaridlərdən və onların parçalanma məhsullarından qaraciyərdə qlikogenin əmələ gəlməsi və toplanmasında, zülal və yağların parçalanma məhsullarından əmələ gəlməsinin ləngiməsində, qlükozanın ümumi qan dövranına keçməsinin azalması hesabına hipoqlikemiyanın inkişafında